

# QURBAN

*hekayə*

Xanım Aydınqızı

Bu il də qurban bayramı yaza düşmüşdü. Torpağı qarışqa başı kimi deşib cücərtilər boy qaldırır, günəş məhəbbəttək qollarını onlara açırdı. Təbiət-torpaq, külək, su, hava, hətta insanlar da yuxudan ayılıb təzəcə qıncanırdı. Külək ağacları sinəsinə vurub ağırlığını özünə qaytarırdı. Divara vurulmuş kağız təqvimdən dünənki səhifəni cırıb atandan sonra, bu günə yağlı qırmızı hərflərlə Qurban bayramı qeyd olunmuşdu. Bu il də həmişəki minvalla il boyu bəslədiyi yaxşı yağlı buynuzlu qoçlardan birini Allah yolunda qurban kəsirdi. Özü də rəhmətlik atası kimi buna "İsmayıl qurbanlığı" deyirdi. Hər il olduğu kimi bu bahar da bayramda oğlu, qızı, nəvə, nəticəsi toplanmışdı başına, böyük təzəcə çiçəkləmiş heyva ağacının altına. İbrahim kişi əvvəlcə nəvələrinə qurbanın tarixindən, dəyərindən danışdı. Hamı bu nitqi əvvəldən axıra - nöqtə-vergülünə qədər söz-söz əzbər bilsə də, hörmət və böyüyə, dinə, Allaha sevgi əlaməti olaraq lal-dinməz qulaq asırdı. Əhvalat bitən kimi İbrahim kişi ayağa qalxıb iti qəhvəyi taxta dəstəyi olan bıçağı bülövə o ki var sürtdü. Sonra gözlərini yumub səssiz-səssiz dua oxudu. Dua oxuması dodaqlarının həzin tərpənişindən hiss olunurdu. Bissimillah deyib qurban mərasimini dədə-baba qaydasıyla yerinə yetirdi. Nəvələri əllərini bir birinə şappıldadıb sevinirdilər. Qarışqalar ağacın budaqlarında sıravi əsgər kimi ard-arda düzələk "parad" edirdi. Baba torpağa axan qana barmağını batırıb uşaqların alnına çəkirdi. Bundan həvəslənən alnı qırmızı xallılar hind mahnılarından alayarımçıq sözləri bir-birinə calayıb şənlik edirdilər. Bu bayram daha çox bütün ailənin məməyeyəndən pəpəyeyənə bir yerə toplaşdığına görə əsl bayram idi. Bəlkə də dini tərəfindən çox mənəvi dəyəri, qiyməti, xüsusi əzizliyi vardı.

Ağ şanı talvarında yarpaqlar təzəcə dolmalıq olmuşdu. Altında süfrə aça-aça sabaha qoçun yağlı yerindən yaxşı tənək dolması bişirməyi düşünürdü xanımlar... Hələliksə cızbızın yavaş-yavaş cızzz bızzzı eşidilir, iyi gəlməyə başlamışdı. Bu özü da bir mərasim idi. Mütləq qoç kəsilib uşaqların alnına bayram nişanı vurulandan sonra ocaq üstdə böyük mis tavada cızbız bişərdi. Nəvələrdən nisbətən böyükləri işə gücə əl verir, balacalarsa haray-həşir salıb həyətin o biri başında - əkin-biçin olmayan yerində çalıb oxuyur, oynayırdılar. Düzü İbrahim kişi də bu ağsaqqallığından xeyli məmnun olurdu. Həm də ki, axı bunun nəyi pisdi? Bütün ailəsi böyüklü-kiçikli sanalı qoz kimi düzülmüşdü bu bayram ocağının başına. Artıq gün gönortanı keçmişdi. Nisbətən sərinləmişdi də. Buna baxmayaraq, həyətdə o başdan bu başa süfrə salınmlşdı. Hamı bir-birini səsləyirdi yığışıb çörək yeməyə. Elə yığışdılar da. Bissmillah deyib barmaqlarının ucuyla çörəkdən bir tikə qoparan kişi nəvələrindən birinin yerini boş qaldığını görüb süfrədən dik qalxdı. Kişinin barıt kimi atılıb ayağa qalxmağından, əyləşdiyi stul tarappıltıyla geri yıxıldı:

- Aydan hanı? Hanı Aydanım? Məclisə elə bil bir dəqiqəlik sükut elan etdilər. Çəngəl-bıçaq da farağat durub, səsi susqunluğa çəkildi.

- Hanı Aydan?

İbrahim kişinin səsi gözlərindən daha çox axtarışa getdi nəvəsini...

"Aydan orda, Aydan burda" deyib ev-eşiyi, həyət-bacanı ələk-vələk elədilər... Bircə tövlə qalmışdı. Ümidsiz də olsa, əsasından bərk yapışıb üz aldı ora. Balaca buruqsaçlı qız nəvəsini elə arxa tövlədə tapdı.

- Ay Aydan, ay mənim ayım, ay mənim danım, ay ulduzum, ay əzizim, niyə burdasan? Niyə gizlənmisən? Az qala bağrım yarılacaqdı, balam...

Kür-Araz kimi qollarını açıb Aydanı qucaqladı. Köynəyinin yaxasından çıxan bəyaz tükləri Aydanın sirsifətini qıdıqladı. Həmişə bundan gülüb şıltaqlansa da, indi babasının qucağında sərçə kimi gözlərini döyüb, çırpınırdı ürəyi...

- Baba aaay baba... Qoyunu kəsdin. Öldü. Biz də onu yeyirik. Sən buna qurban deyirsən, ay baba. Dünən yeddi idilər, bu gün altı qalıblar. Bəlkə onlar da elə bilir ki, qoyun yoldaşlarını Allah aparıb. Bəlkə, onlar da öz dünyalarında ağlayırlar, ağı deyirlər. Bəlkə, darıxırlar. Bəlkə ondandır ki, belə mələşirlər

Aydanhıçqıra-hıçqıra, dayanmadan, nəfəs dərmədən elə döşüyürdü suallarını.

- Amma qoyunu öldürüb yediyimizi onlar başa düşməsələr də, biz bilirik axı. Baba, ay baba, bəlkə biz də başa düşmürük. Bəlkə, Allah dediyimizdi elə onu udan torpaq?

Aydan cıqqılı əlinin üst tərəfiylə gözünün yaşını sildi. O biri əliylə heyva çubuğunu barmaqları arasında möhkəm sıxdı...

- Baba, atamçun darıxmışam

